# VI ADA 2023 Beynəlxalq Təhsil Konfransı

## Maarifçiliyə yenidən baxış

ADA Universiteti Azərbaycan Elm və Təhsil Nazirliyi, həmçinin Anthology birgə əməkdaşlığı ilə təşkil etdiyi VI ADA 2023 Beynəlxalq Təhsil Konfransını elan etməkdən böyük məmnuniyyət hissi duyur.

VI ADA Təhsil Konfransı Qazaxda ADA Təhsil Mərkəzinin fəaliyyətə başlaması ilə eyni vaxta təsadüf edir. Bu əlamətdar hadisə simvolik məna daşıyır və Azərbaycanda güclü maarifçilik ənənələrinin davam etdirilməsinə xidmət edir.

ADA-nın 6-cı Təhsil Konfransı Qori Müəllimlər Seminariyasından (1876-1918) Qazax Müəllimlər Seminariyasına (1918-1957), 1990-cı illərdə müstəqillik əldə etdikdən sonra baş verən təhsil islahatlarından tutmuş, son pandemiya səbəbi ilə təhsilin rəqəmsallaşmasına qədər tariximizdəki maarifçiliyin ardıcıl dalğalarının təcrübəsini əks etdirmək məqsədi daşıyır.

Maarifçilik gələcək tarixi dövrə aid məsələləri həll edən, öyrənmə və öyrətmə metodlarımızda kifayət qədər köklü dəyişikliklər təklif edən mürəkkəb bir hərəkatdır. Rəqəmsal inqilab yaşamaq, işləmək, məlumat əldə etmək, ünsiyyət qurmaq, öyrətmək və öyrənmək tərzimizi dəyişməyə başlayıb.

Rəqəmsal texnologiya və platformalardakı yeni tendensiya və yeniliklər göz önünə alındıqda maarifləndirmə və rəqəmsallaşmanın transformativ gücünün sinerjisi bizə ənənəvi təhsildən onlayn təlim və tədrisin yeni istiqamətlərinə keçiddə kömək edəcək.

Bu il VI ADA Təhsil konfransı- alimləri, təhsil siyasətlərinin qurucularını, müstəqil tədqiqatçıları, təhsil işçilərini və tələbələri bir araya gətirəcək akademik forum öz adına uyğun olaraq, “Maarifçilik və Rəqəmsal İnqilab” təcrübəsini yenidən nəzərdən keçirmək, qarşıya çıxan problemləri həll etmək zərurətini vurğulayacaq, təhsil ictimaiyyətində müzakirələri təmin etməklə qarşıya çıxan problemləri həll etmək üçün töhfələr verəcəkdir.

Maarifləndirmə və rəqəmsallaşma dövründə transformasiya olunan sahələrə uyğun olaraq, ADA Təhsil Konfransı aşağıdakı konfrans mövzuları ilə bağlı təqdimatların qəbulunu elan edir:

- Tədris və öyrənmə
- Liderlik və təhsil müəssisələri

- Qiymətləndirmə və dəyərləndirmə
- Ömür boyu təhsil və inkişaf
- Tədris resursları və infrastruktur
- Peşə təhsili
- Bütün öyrənənlər üçün inklüziv təhsil
- Təhsil siyasəti, tədqiqat və maliyyə

Konfransın təhsildə maarifləndirmə və rəqəmsallaşma prosesində bilik istehsalının və təhsil təcrübəsinin parametrlərinin genişləndirilməsinə əsaslanan geniş panel müzakirələri, elmi məqalələrin təqdimatları və poster sessiyaları kimi keçirilməsi nəzərdə tutulur. Konfransda çıxış edən müəlliflər sertifikatla təltif olunacaq və tam məqalələrini konfrans materiallarında dərc etmək imkanı əldə edəcəklər.

**Məqalələrin təqdim edilmə meyarları:**

Tədqiqat təklifləri (həm tezislər, həm də sonrakı mərhələdə təqdim olunacaq yekun məqalələr) Azərbaycan, ingilis və rus dillərində qəbul edilir. Abstrakt minimum 500 sözdən və 3 açar sözdən ibarət olmalıdır.

**Önəmli tarixlər**

Tezislərin təqdim edilməsi üçün son tarix: 16 yanvar 2023-cü il

Tezisləri qəbul edilmiş namizədlərin məlumatlandırılması: 17 fevral 2023-cü il

Məqalələrin əslinin  təqdim edilməsi üçün son tarix: 26 aprel 2023-cü il

Konfrans üçün qeydiyyatın açılması – 3 aprel 2023-cü il

Konfransa qeydiyyat üçün son tarix: 12 iyun 2023-cü il

Konfransöncəsi seminarın tarixi: 21 iyun 2023-cü il

Konfransın keçirilmə tarixi: 22-23 iyun 2023-cü il

**Təqdimat**

Tezislərinizi aşağıda təqdim olunan struktura uyğun tərtib edərək (İngilis və Azərbaycan versiyaları burada yerləşdirilmişdir)16 yanvar 2023-cü il tarixinədək sel@ada.edu.az elektron ünvanına göndərin (formu yükləyin və doldurduqdan sonra bizə geri göndərin).

FORM-EDU abstract 2023-ENGLISH VERSION

FORM-EDU abstract  AZERBAIJANI VERSION

E-poçtun mövzu hissəsində “ADA 2023 Təhsil konfransı üçün tezislər – Adınız” qeyd edin.

Tezislərdə aşağıdakılar təqdim olunmalıdır:

- məqalənin başlığı, tam adı (adları);
- aid olduğunuz müəssisənin adı;
- cari vəzifəniz;
- e-poçt ünvanı;
- təqdim etdiyiniz mövzunu ən yaxşı təsvir edən ən azı 3 açar söz.

Tezislərin təqdim edilməsi zamanı ADA Universiteti tərəfindən irəli sürülən bütün ümumi qaydalara əməl edilməlidir (linklərə baxın).

Azərbaycan dilində olan təqdimat üçün təlimatlar:

AZERBAIJANI language GENERAL GUIDELINES FOR PROPOSAL SUBMISSIONS 2023

İngilis dilində olan təqdimat üçün təlimatlar:

ENGLISH language GENERAL GUIDELINES FOR PROPOSAL- SUBMISSIONS 2023

Tezis və məqalələr Konfransın Tədqiqat Komitəsi tərəfindən orijinallıq, texniki-tədqiqat dərinliyi, dəqiqlik və konfrans mövzusuna uyğunluq əsasında qiymətləndiriləcək.

Tezis qəbul olunarsa, müəllif ADA Universitetinin Təhsil fakültəsindən məlumat alır və nəticələr, cədvəllər, rəqəmlər və istinadlar daxil olmaqla məqalənin tam mətnini göndərməyə razılıq verir.

**Qeydiyyat və ödəniş**

Məqalələrin təqdim edilməsi konfrans üçün qeydiyyatdan keçmək hesab olunmur. Belə ki, konfransda iştirak etməyi planlaşdıran hər kəs qeydiyyat prosesini tamamlamalıdır. ADA 2023 VI Beynəlxalq Təhsil Konfransına onlayn qeydiyyat 2023-cü ilin aprel ayında VI ADA 2023 Beynəlxalq Təhsil Konfransının internet səhifəsində ( http://edcon.ada.edu.az/ ) aparılacaq.

Qeydiyyat haqqı Azərbaycan vətəndaşları üçün 55 AZN, əcnəbilər üçün 80 AZN təşkil edir.

*Qeydiyyat haqqına daxildir: konfrans öncəsi seminarlara giriş və iştirak sertifikatı ilə mükafatlandırma, konfrans sessiyaları, plenar iclaslar, gündəlik yemək fasilələri, konfrans kitabçası və s.

Ödəniş 3 aprel 2023-cü il tarixində internet səhifəsində aktivləşdiriləcək ADA 2023 VI Beynəlxalq Təhsil Konfransının https://online.ada.edu.az/payment/ saytından onlayn olaraq həyata keçirilə bilər.

Köçürmə yolu ilə ödəniş ADA Universitetinin AZN bank hesabına edilə bilər.

Bank hesabı ilə bağlı ətraflı məlumatı əlavədə tapa bilərsiniz.

**Əlaqə**

Suallarınızı ADA Universitetinin Təhsil fakültəsinə- sel@ada.edu.az elektron ünvanına, və ya (012) 437 32 35 (daxili 417) nömrəsinə ünvanlaya bilərsiniz.

# ÖDƏNİŞ FORMASI

Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən istənilən bank şöbəsində bu formanı doldurub təqdim etməklə "ADA" Universitetinə ödəniş edə bilərsiniz.

## İştirakçı haqqında məlumat

**İştirakçının adı, soyadı və ata adı:** ------------------------------------------------

**Ödənişin məbləği:** ------------------------------------------------

**Ödənişin təyinatı:** ------------------------------------------------

Ödəyicinin tam adı, ödənişin təyinatının göstərilməsi mütləq və kifayətdir. Məsələn: "Aygün Arifli Akif qızı, 55 AZN, ADA 2023 - VI ADA Beynəlxalq Təhsil Konfransı".

## Bank Detalları

Vəsait aşağıdakı hesaba köçürülməlidir:

| | |
|---|---|
| Benefisiarın adı: | "ADA" Universiteti |
| Benefisiarın VÖEN-i: | 1301261241 |
| Hesab nömrəsi: | AZ65PAHA38090AZNHC0290036279 |
| Bank: | "PAŞA Bank" ASC |
| SWIFT: | PAHAAZ22 |
| Bankın VÖEN-i: | 1700767721 |
| Kod: | 505141 |
| Müxbir hesab: | AZ82NABZ01350100000000071944 |

## Əlaqə

Hər hansı sualınız yaranarsa, bfa@ada.edu.az e-poçt ünvanı və ya (012) 437-32-35 (dax. 196/371) telefon nömrəsi vasitəsilə Maliyyə Şöbəsi ilə əlaqə saxlaya bilərsiniz.